Kazus

Vətəndaş Quliyev Aydın narkotik maddələrdən istifadə edən şəxs kimi polis orqanları tərəfindən uçota alınır, əməliyyat-axtarış işi açılır və vaxtaşırı onun barəsində agentlər vasitəsi ilə məlumatlar toplanılır.Onun 12 fevral 2015-ci ildə narkotik maddə əldə edib evinə getdiyi barədə məlumat alan polis əməkdaşları saat 13 radələrində A.Quliyevin yaşadığı ünvana gələrək xidməti vəsiqələrini göstərib aldıqları məlumatın yoxlanılması üçün gəldiklərini bildirdikdən sonra mənzilə daxil olmuş,əvvəl Aydının,sonra isə onun arvadının üstünə baxış keçirmişlər.A.Quliyev müharibə iştirakçısı olduğunu,döyüşlərdə xəsarət aldığını,bədənində mərmi qəlpəsi olduğunu,ağrılarını səngitmək üçün narkotik vasitələrfən vaxtaşırı,lakin normada istifadə etdiyini ,bunu yalnız arvadı X.Quliyevanın bildiyini söyləsə və evdə gizli saxlanc yerində gizlədiyi,şəxsi istehlak normasında paylara ayrılmış (A.Quliyevin söyləməsinə əsasən)bükümləri təqdim etsə də,polislər mənzilə dəvət etdikləri hal şahidlərinin,az sonra evə gəlmiş 3 orta məktəb şagirdi olan uşaqlarının,habelə maraq üçün gəlmiş qonşuların yanında A.Quliyevin narkoman olduğunu bəyan edərək,narkotik vasitələri onlara nümayiş etdirir,qollarına qandal vuraraq nümayişkaranə surətdə həyətdə saxladıqları polis maşınına mindirir və polis şöbəsinə aparırlar.Polisdə A.Quliyevin saçı küt və çirkli mexaniki əl maşını ilə dibdən yolunaraq qırxılır.

Polis şöbəsində izahatı alındıqdan və barəsində AR CM-nin 234.1-ci maddəsi ilə cinayət işi başlandıqdan sonra,onunnarkomanlığının yoxlanılması üçün qan və sidik nümunələri götürülür, dindirildiyi kabinetə telejurnalistlər dəvət edilir və A.Quliyev istəməsə də ona suallar verilməklə törətmiş olduğu əməl barədə məlumat toplanır və həmin günü gecə xəbərlərində Kəpəz TV vasitəsi ilə nümayiş etdirilir.

Bu xəbərdən sonra A.Quliyevin fəhlə işlədiyi mağazanın sahibi onu işdən azad edir,valideynləri və övladları ondan üz çevirərək görüşə gəlməkdən imtina edirlər.Görüşə gələn arvadı Xatirəyə isə həmin günüvə sonrakı günlər də istintaq getdiyi bildirilib görüş verilmir. Polis rəisinin göstərişi ilə onu narkoman olması səbəbi ilə mənimsəmə cinayətində suçlanan 3 bank əməkdaşının olduğu qızdırma sistemi saz olan kameradan çıxarıb nisbətən soyuq kameraya keçirib tək saxlayırlar.

A.Quliyev məhkəməyə müraciət edir və ailə,şəxsi həyarınat,mənzilinə polis və mətbuat orqanlarının qanunsuz müdaxiləsini,onunla amansız rəftar edildiyini,ayrı-seçkiliyə məruz qaldığını bildirir.Polislər məhkəmədə mənzilə icazəsiz daxil olmalarını evdə cinayətin predmetinin olması barədə dəqiq məlumatlara malik olmaları,narkomanlığın ictimai bəla olmasını,buna görə tərbiyəvi proflaktiki məqsədlərdən ötrü ictimaiyyətə açıqlanmasını,saçının qırxılmasını sanitar-gigiyena qaydalarına əməl edilməsi zəruriliyi,qan və sidik nümynələrinin isə onun narkomanlıqdan məcburi müalicəyə ehtiyacının olub-olmamasını aydınlaşdırmaq üçün etdiklərini,arvadı ilə görüşə istintaq sirrinin yayılmasının qarşısını almaq ehtimalı ilə icazə verilmədiyini bildirdilər.

Digər instansiyalar da A.Quliyevin şikayətini rədd etdilər.Əlacsız qalan A.Qulitev Avriopa İnsan Hüquqları Məhkəməsinə müraciət etməli olur.

Burada AİHM cavabdeh hökumət tərəfindən Konvensiyanın hansı maddələrinin tələblərinin pozuntusunu aşkar etmişdi?

Mətləb Quliyev Ucar rayonunun Çiyni kəndində fərdi ev tikintisində fəhlə işləyərkən qonşuluqda yaşayan dul qadın -Əntiqə ilə tanış olur.Nəhayət,qarşılıqlı razılaşma əsasında onlar molladan kəbin kəsdirir,daha doğrusu "SİĞƏ" etdirməklə 20 gün bir yerdə ər-arvad kimi yaşayırlar.Sonra o,işini başa vurur və Lənkəran rayonuna öz arvad-uşaqlarının yanına qayıdır.Növbəti il o,yenidən Çiyni kəndinə mövsümi işlərini yerinə yetirmək,pul qazanmaq üçün gəlir və Əntiqə ilə görüşüb hal-əhval tutarkən ondan bir oğlunun dünyaya gəldiyini öyrənir.Əntiqə uşağın atasının adını uzaq qohumlarından birinin adını yazdırdığını bildirir.Mətləb Əntiqənin bu işindən bir növ razı qalır və ona ailə problemi yaşatmadığı üçün təşəkkür edir.Əlaqələrini kəsən Mətləbin həmin vaxt iki qız övladı vardı.O,oğlunun olmasını arzu etsə də növbəti 6 ildə daha 4 qız övladı dünyaya gəlir.Daha başqa övlad dünyaya gətirmək fikrindən vaz keçən Mətləb Çiyni kəndinə gəlir,Əntiqə ilə görüşür,oğlunu da görmək istədiyini,ona vaxtaşırı baş çəkmək arzusunda olduğunu bildirir.Əntiqə onun qarşısına şərt qoyur ki, birinci arvadını boşayıb onunla evlənəcəyi təqdirdə buna imkan verəcəkdir.Mətləb ona yalandan söz verir ki,arvadını boşayıb onun yanına gələcəkdir.Və il ərzində hər ay bir neçə gün gəlib Əntiqə və oğlunun yanında qalır.Lakin özünü oğluna atası kimi tanıtsa da onlara heç bir maddi yardım etmir,oğlunun atasının adının,soyadının dəyişdirilməsi üçün heç bir təşəbbüs göstərmir.Onun Əntiqənin evində qeydiyyatsız yaşadığını bilən Ucar polisi onu evdən qovur,Əntiqə və oğlu ilə görüşməsini qadağan edirlər.Ondan bir daha Əntiqəni narahat etməməsi,kəndə gəlməməsi,öz rayonuna qayıtması barədə iltizam alınır.Onun Əntiqə ilə olan əlaqələri barədə Lənkəranda yaşadığı yer üzrə ərazi nümayəndəliyinə məktub yazılır,Lənkəran polis şöbəsinə məlumat verilir.Əlacsız qalan Mətləb Lənkərana qayıtdıqdan sonra ərazi nümayəndəliyində bu məsələ kənd ağsaqqallarının iştirakı ilə müzakirə edilərək o,tənbeh olunur.Polis tərəfindən isə ondan hər ay mobil telefon danışıqlarının çıxarışları tələb edilərək alınır və Əntiqənin evinə,mobil telefonuna zəng edib etmədiyi yoxlanılır.Ona görə də o,Əntiqə ilə əlaqə saxlaya bilmir.6 ay sonra eşidir ki,Əntiqə başqa bir kişi ilə ailə həyatı qurmuş və oğlu onun tərəfindən övladlığa götürülmüşdür.

Xəbəri olmadan oğlunun övladlığa götürülməsindən Mətləb məhkəməyə şikayət etsə də,uşağın soyadının və atasının adının başqa olması əsas götürən məhkəmə onun iddiasını rədd edir.

Avropa Konvensiyasının hansı müddəalarının pozuntusu aşkar edilmişdi?

Hazırladı: Sima Yaqubova